# DAŞKƏSƏN: TƏHSİLİN İNKİŞAFI ÖN PLANDADIR

**Azərbaycanın inkişafına sanballı töhfə verəcək gənclərin hazırlanmasında yüksək peşəkarlıq və fədakarlıq göstərən Daşkəsən rayonunun təhsil işçilərinin öz payı var.**

**Müsahibimiz Rayon Təhsil şöbəsinin müdiri, təcrübəli pedaqoq Zaur Məmmədovdan** rayonda təhsilin vəziyyəti, perspektivləri, qazanılan uğurlar haqqında məlumat verməyini xahiş etdik. O, qeyd etdi ki, ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlar, beynəlxalq aləmdə Azərbaycanımızın nüfuzunun gündən-günə artması, dünyada ən sürətlə inkişaf edən dövlət kimi tanınması, regionlarımızın öz simasını tanınmaz ölçüdə dəyişməsi, elm, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində əldə olunan nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində qürur hissi yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, ümumi təhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür. Ölkəmiz üçün müasir düşüncəli və rəqabətqabiliyyətli insan kapitalının formalaşmasında ən kütləvi təhsil sahəsi olan ümumi təhsil xüsusi əhəmiyyətə malikdir. Ona görə də ümumi təhsilin səmərəlilik və effektivliyinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun, keyfiyyətli təhsillə təmin olunması, onların cəmiyyətdə vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzinə çəkilən mühüm vəzifə hesab olunmuşdur.

Ümumtəhsil məktəb şagirdlərinə dərsliklərin pulsuz verilməsi, bölgələrdə təlim-tərbiyə şəraitinin yaxşılaşdırılmasına, növbəliliyin əsaslı şəkildə azaldılmasına xidmət edən yeni məktəb binalarının inşası, köhnəlmiş məktəblərin əsaslı təmiri və onların müasir avadanlıqlarla, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə təchizi, pedaqoji və rəhbər pedaqoji kadrların seçilib yerləşdirilməsində ciddi qayda dəyişikliklərinin edilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində sağlam rəqabətin yaranması və onların əməkhaqqının artırılması ilə nəticələnən diaqnostik qiymətləndirmələrin keçirilməsi, dərslərin müddətinin uzadılması, istedadlı şagirdlərin olimpiada hərəkatının gücləndirilməsi, dövlət ümumtəhsil məktəblərində uşaqların məktəbəhazırlıq təhsilinin təşkili, tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsinin tətbiqi və ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əhəmiyyətli tədbirlərdəndir. Həqiqətən də, aparılmış monitorinq və araşdırmalar göstərir ki, son illər nazirlik tərəfindən ümumtəhsil məktəb şagirdlərinin təlim nailiyyətlərinə nəzarətin gücləndirilməsi sahəsində bölgələrdə ümumi təhsil üzrə keyfiyyət göstəricilərində, xüsusilə də buraxılış imtahanları və ali məktəbə qəbulun nəticələrində əvvəlki illərlə müqayisədə nəzərəçarpan irəliləyişlər müşahidə edilməkdədir. Ümumi təhsil sahəsində müasir dövrün çağırışlarına əsaslanmaqla şərtləndirilən keyfiyyət dəyişikliklərinə nail olmaq və bu prosesdə yerli təhsil idarə etmə orqanlarının, məktəb pedaqoji kollektivlərinin imkanlarını səfərbər etmək məqsədilə 2017-2018-ci dərs ili ölkənin dövlət ümumi təhsil müəssisələrində "Təhsildə keyfiyyət ili" elan olunması ümumtəhsil sahəsində tarixi hadisədir.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" 16 yanvar 2015-ci il tarixli Sərəncamına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşı 2 dəfə artmışdır. Eyni zamanda, ölkə Prezidentinin 23 avqust 2017-ci il tarixli Sərəncamına əsasən Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş müsabiqə yolu ilə ümumi təhsil müəssisələrinə işə qəbul olunan müəllimlər diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərə bərabər tutulmuşdur.

Respublikamızın hər yerində olduğu kimi, Daşkəsən rayonunda da təhsil islahatının həyata keçirilməsi, ümumtəhsil məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, şagirdlərin elmi biliklərə dərindən yiyələnməsi üçün normal şəraitin yaradılması, tədris prosesinin təkmilləşdirilməsi sahəsində uğurlu nəticələr əldə edilmişdir.

Beləliklə, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin təşəbbüsü və yaxından köməyi nəticəsində Təhsil Şöbəsi yeni inzibati binaya köçürülmüşdür.

2016-2017-ci dərs ilində rayon təhsil şöbəsinin tabeliyində 42 ümumtəhsil məktəb, o cümlədən 26 tam orta, 14 ümumi orta, 2 ibtidai təhsil müəssisəsi fəaliyyət göstərmişdir.

Rayonun təhsil ocaqlarında gənc nəslin təlim-tərbiyəsi ilə 580 nəfər müəllim məşğul olmuşdur ki, onlardan 400 nəfərini qadınlar təşkil edir. Təhsil sahəsində qazandıqları nailiyyətlərə görə 6 nəfər "Əməkdar müəllim" adına, 5 nəfər isə "Tərəqqi" medalına layıq görülmüşdür.

Ümumiyyətlə, rayon təhsil şöbəsinin fəaliyyətinin əsas istiqaməti aparılan islahatlar sahəsində yeni kurikulumların tətbiqi prosesini müntəzəm nəzarətdə saxlamaq, bu vacib işin yerinə yetirilməsinə ardıcıl əməli köməklik göstərmək, nəticələrin monitorinqi və qiymətləndirilməsini aparıb təkliflər hazırlamaq, eyni zamanda pedaqoji ictimaiyyət arasında maarifləndirmə tədbirlərini gücləndirmək olmuşdur. Artıq məlumdur ki, I-IX siniflərdə kurikulumun tətbiqi, bu sahədə müəllimlərin hazırlanması və maarifləndirilməsi işləri başa çatmışdır. Yeni təlim üsulu tədris prosesinin təkmilləşdirilməsində, ayrı-ayrı fənlərin şagirdlər tərəfindən mənimsənilməsində güclü təsirə malik olmuşdur. Müşahidələr göstərmişdir ki, kurikulum tətbiq edilən siniflərdə şagirdlərin fəallığı, sərbəst düşünmək qabiliyyəti onların yaradıcılıq potensialının inkişafına əsaslı zəmin yaratmışdır. Rayonun ümumtəhsil məktəblərinin ibtidai siniflərində ötən illərlə müqayisədə "4" və "5" qiymətlərlə oxuyan şagirdlərin sayı xeyli artmışdır.

Rayonun 224 tam orta məktəb məzunlarından 104 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə vermişdir. Onlardan 59 nəfəri ölkənin nüfuzlu ali məktəblərinə, 20 nəfəri isə orta ixtisas təhsil müəssisələrinə qəbul olunmuşdur. Keçən tədris ili ilə müqayisədə ali məktəblərə qəbul olunanların sayı cari tədris ilində 9 nəfər artmışdır. Ali məktəblərə qəbul olunan məzunlardan 2 nəfəri 600-dən, 3 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Etiraf etməliyik ki, ali məktəblərə qəbulun keyfiyyət göstəriciləri ötən illərlə müqayisədə xeyli yüksək olmuşdur və bu həqiqətən, pedaqoji kollektivlərimizin uğurlu fəaliyyəti kimi qiymətləndirilməlidir.



Rayon təhsil şöbəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirir. Ötən dərs ilinin başlanğıcından hər bir ümumtəhsil məktəbi üzrə qabiliyyətli şagirdlər qeydiyyata götürülmüş, onların maraq və yaradıcılıq meyilləri nəzərə alınmaqla istedad bankı yaradılmışdır. 2017-ci ilin aprel-may aylarında əlamətdar gün və hadisələrə həsr olunmuş respublika inşa-yazı müsabiqəsində rayonumuzun gənc istedadları da yaxından iştirak etmiş, mükafata layiq yerlər tutmuşlar. Keçən ilin dekabr və bu ilin yanvar aylarında rayon təhsil şöbəsinin müvafiq əmri ilə rayon məktəblilərinin fənn olimpiadalarının birinci və ikinci turları keçirilmişdir. Ümumilikdə səkkiz fənn üzrə keçirilən bilik yarışlarında 182 nəfərdən çox şagird iştirak etmişdir. Fənn olimpiadalarında ən yüksək nəticələr göstərən 8 nəfər istedadlı gənc fənn olimpiadasının zona birinciliyində iştirak etmək hüququ qazanmışdır. Rayonun ümumtəhsil məktəblərinin VI-VIII sinif şagirdləri arasında 05 mart 2017-ci il tarixdə 5 fəndən keçirilmiş fənn müsabiqəsində 70 nəfər şagird iştirak etmişdir. Onlardan 16 nəfəri respublika turunda iştirak etmək hüququ qazanmışdır və 17 iyun 2017-ci il tarixdə komanda şəklində Bakı şəhərində respublika turunda iştirak etmişlər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibəti ilə 4 idman növü üzrə 1 saylı tam orta məktəbin gənc idmançıları I yerə, 2 saylı tam orta məktəbin gənc idmançıları II yerə, Qaraqullar kənd tam orta məktəbin gənc idmançıları III yerə layiq görülmüşlər. Bundan əlavə gənc güləşçilərimiz zona yarışlarında rayonumuzun idman şərəfini layiqincə qoruyaraq mükafata layiq yerlər tutmuşlar. Rayon Şahmat məktəbində gənc istedadların potensial imkanlarının inkişafı, uşaqların şahmat oyunun sirlərinə dərindən yiyələnməsi üçün məzmunlu tədbirlərin həyata keçirilməsinə böyük önəm verilir. Bu ilin may ayında "Şagird-ailə" respublika şahmat yarışında Daşkəsən şəhər 3 №-li tam orta məktəbin şagirdi Əsgərov Emin Arif oğlu yüksək nəticələr göstərərək mükafata layiq yer tutmuşdur. İ.Nəsimi adına 1 №-li tam orta məktəbin 9-cu sinif şagirdi Abbasov Elnur Ramiz oğlu 2017-ci ilin iyun ayında Bakı şəhərində keçirilən "Ədəbiyyat biliciləri" respublika müsabiqəsində uğurlu nəticələr göstərərək Azərbaycan Respublikası Təhsil Nazirliyinin diplomunu almışdır. Uşaq Yaradıcılıq və Texniki Yaradıcılıq mərkəzlərində gənclərin istedad və bacarıqlarının üzrə çıxarılması, onların texniki yaradıcılıqlarının inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə diqqət artırılmışdır.

Təhsil sisteminin qarşısında duran əsas vəzifə təlim prosesinin səmərəliliyini təmin etməklə, milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal və təşəbbüskar şəxsiyyətlər yetişdirməkdir. Bu proses məktəblərdə dərslərin yeni təlim texnologiyaları ilə təşkilini, müəllimin özünün hazırlığını ön plana çəkir. Bu günün müəllimi ənənəvi metodlardan uzaqlaşmalı, yeni təlim texnologiyalarını dərindən mənimsəməli, şagirdləri düşünməyə, axtarmağa, nəticə çıxarmağa sövq etməlidir. Buna görə də hər bir müəllim dərslərə ciddi hazırlaşmalı, özündə informasiya bolluğu yaratmalı, peşəkarlıq səviyyəsini durmadan artırmalıdır.

Məhz buna görə də rayon təhsil şöbəsi kadrların ixtisasının artırılması, pedaqoji işçilərin elmi-metodiki səviyyəsinin yüksəldilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır. Ötən tədris ilində rayonun ümumtəhsil məktəbləri müəllimlərinin seminarlara, treninqlərə, ixtisasartırma kurslarına cəlb olunması istiqamətində səmərəli tədbirlər həyata keçirilmişdir.

Bu gün ən aktual məsələlərdən biri uşaqların məktəb təliminə hazırlanmasıdır. Reallıq ondan ibarətdir ki, uşaqlar məktəb təliminə başlayarkən problemlərlə üzləşməli olurlar. Bu problemlər onların həmyaşıdları və müəllimi ilə ünsiyyətdə, birgə qrup fəaliyyətində lazımi təlim bacarıqlarının olmamasında özünü göstərir. Bu problemin həll olunması üçün məktəbəqədər təhsilin ardıcıl və sistemli təşkil olunması vacib hesab edilir. Məhz buna görə də həmin məsələ "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda xüsusi olaraq qeyd edilmişdir.

2017-2018-ci dərs ilində rayonun ümumtəhsil məktəblərində məktəbəqədər təhsillə əlaqədar 12 (on iki) qrupun fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur. Məktəb rəhbərləri 5 yaşlı uşaqların fiziki və əqli inkişafını təmin etmək, onların yaradıcılıq qabiliyyətini üzrə çıxarmaq, onlarda həyati bilik və bacarıqları, davranış qaydaları aşılayan təlim üsullarından istifadə edilməsinə ciddi diqqət yetirməlidirlər.

Cari dərs ilində rayonun 1 və 2 saylı tam orta məktəblərinin tam orta təhsil səviyyəsi üzrə texniki və riyaziyyat-iqtisadiyyat təmayüllü siniflər təşkil olunmuşdur. "Təhsil Qanunu"nun tələblərinə uyğun olaraq məktəblərdə və digər təhsil müəssisələrində təlim-tərbiyə işlərinin vəziyyəti, məktəb islahatının sürətləndirilməsi məsələləri araşdırılmış, Təhsil Şöbəsinin şura iclaslarında geniş müzakirə olunmuşdur. Şura iclasları ayda bir dəfə olmaqla tərtib olunmuş qrafikə uyğun keçirilmişdir. Şura iclaslarında məktəb işinin müxtəlif sahələrinə dair 43 məsələ müzakirəyə çıxarılmışdır. Müzakirə edilən məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, təlimin səmərə və keyfiyyətinin yüksəldilməsinə yönəldilən qərarlar qəbul edilmişdir.

Təhsil şöbəsinin müdiri söhbətinin sonunda, bir daha, təhsil işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə edərək, tam əminliklə bildirdi ki, rayonun təhsil müəssisələrində çalışan bütün pedaqoji işçiləri milli təhsilimizin gələcək uğurları üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**